**Azərbaycan dövlətinin konstitusiya hüququ olan ərazi bütövlüyünün bərqərar edilməsi, suverenliyinin tam təmin olunması şair və yazıçılarımızın da yaradıcılığından qırmızı xətlə keçir. Xalq şairi Sabir Rüstəmxanlı qələmə aldığı "Qarabağa dönüş" poeması da bu sırada öncül mövqe tutan nümunələrdəndir.**

Bir vaxt yazdığı "Ömür kitabı" ilə milli və dövləti mənlik şüurumuzu dirçəldən Sabir Rüstəmxanlı istiqlalımızın rövnəqləndirilməsinə ilk toxumu səpənlərdən olub. İndi isə, budur, şairin yeni parlaq əsəri ruhumuza ərməğan olub. Təkcə Zəfərin tərənnümü deyil, eyni zamanda, tarixə ibrətamiz səyahət səciyyəsi daşıyan "Qarabağa dönüş" həm də bütövlük salnaməmizin növbəti bədii pilləsi, müjdə rəmzi kimi dəyərlidir. Burada tarixin keşməkeşlərindən şərəflə keçən, hürr yaşamağa halal haqqı çatan türk toplumunun vəhdətindən bədii dillə söz açılır.

Sabir Rüstəmxanlı buna qədər "Gəncə qapısı"nı döyüb, "Qan yaddaşı"mızı oyadıb, "Zaman məndən keçir" deyərək mübarizəmizi ovxarlayıb, dərdimizi "Ölüm zirvəsi"nə qaldırıb, fədailərə "Dərdə əyilmə", "Sunami"lərdən çəkinmə xəbərdarlığı edib. İndi də "Qarabağa dönüş"ü müzəffər hərbi və bədii marş sədalarının müşayiəti ilə pardaqlandırıb.

"Qarabağa dönüş"lə bağlı fikirlərini bildirən qələmdaşlarının da vurğuladıqları kimi, Sabir Rüstəmxanlı yaşının və yaradıcılığının müdriklik çağında ədəbiyyatımıza bəxş etdiyi bu poema ilə bir daha vətəndaş şair olaraq həm zaman azərbaycançılıq məfkurəsinə sıx bağlılığını göstərib.

# "Qarabağa dönüş"

**(poemadan parçalar)**



*...Savaş deyən sərkərdə milləti oyandırdı,*
*Hər ürəkdə ümiddən çilçıraqlar yandırdı.*
*Yol gözləyən yurdların harayı hər gün təzə,*
*On milyonun tək səsi yol açdı üzümüzə.*
*Qalxdı igid oğullar, oğul düşmən çəpəri,*
*Qalxdı əmrə müntəzir Azərbaycan əsgəri!*
*Nəfəsi yaz nəfəsi, səsi ildırım səsi,*
*Yurdun coşan ilhamı, qisas almaq həvəsi.*

***

*Murovun, Dəlidağın üstündən çəkilir çən,*
*Qəddini yavaş-yavaş dikəldir yorğun Vətən.*
*İntizarı dağılır yad olmuş sahillərin*
*Süsləndikcə üçrəngli bayraqla Xudafərin.*
*Otuz il ümid verib bizi susduran susur,*
*Ümidini qırdıqca Azərbaycan ordusu.*
*Bayram havası gəzir şəhərləri, kəndləri*
*Paylandıqca hər axşam qələbə tvitləri.*

*Ax dünya, qəddar dünya, əsiridir yalanın,*
*Başını əzib keçmir bu zəhərli ilanın,*
*Köhnə Səlib havası dolaşdıqca başında*
*Necə ölkə səf tutur yenə din savaşında.*
*Tanrı da əsir düşüb siyasətə, sirr deyil,*
*O özü bir olsa da elçiləri bir deyil.*
*Şükür, yıxıb dağıdır bu çürüyən bütləri*
*Qanımdan qanad taxan qələbə tvitləri.*

*Şeytan üskük oynadır erməni kilsəsində,*
*Nə Allah sevgisi var, nə inanc hiyləsində.*
*Hər keçənə əl açır, hər tərəfdən pay umur,*
*Dosta xəyanət edib kənardan haray umur.*
*İnsanlıqdan danışır, ancaq xəyalında qan,*
*Nə keşişdən əl çəkir, nə ayrılır molladan.*
*Pozur bu oyunları yurdumun igidləri*
*Yayıldıqca dünyaya qələbə tvitləri.*

*Qartal kimi açılır Şuşanın qanadları,*
*Yorur Cıdır düzünü Qarabağın atları.*
*Haqq tutur öz yerini, kökü kəsilir şərin,*
*Dağıdır matəmini səsimiz Kəlbəcərin.*
*Açır öz qollarını Kirs yolu, Laçın yolu,*
*Düzlənir ayağımda dağların qırçın yolu.*
*Aşıb keçir əsgərim divarları, səddləri*
*Dilində nəğmə kimi qələbə tvitləri!*

***

*Bir vaxt Nuru paşa da gəldi qardaş hayına,*
*Dirək oldu yurdumda min könül sarayına,*
*Ocağımız küllənib, ümidimiz sönəndə,*
*Bakı, Şuşa, Zəngəzur qan gölünə dönəndə.*
*Tiflisdən, Qarabağdan, Naxçıvandan keçmişdi.*
*Necə gizli tələdən, necə qandan keçmişdi.*
*Osmanlı zor durumda, qardaşın halı da pis,*
*Bir yanda rus daşnakla, bir tərəfdə ingilis.*
*Bütün oyunlar bitib, bütün yollar tutulmuş,*
*Bakı bunların olub, millətim unudulmuş.*
*Onda da öyünürdü düşmən silah-sursatla,*
*Bakı dəmir zirehdə, paşam tələsir atla,*
*Ancaq atı uçuran belindəki qeyrətdi,*
*Düşməni diz çökdürən gənc paşaya heyrətdi...*
*Aradan yüz il keçib, dünya köhnə dəyirman,*
*Üyüdülmək növbəsi - sırada biz, müsəlman!*
*Sırada biz - Ədalət! Haqq deyib, haqq istəyən,*
*Öz halal torpağına sahib çıxmaq istəyən!*
*Zaman deyir dağının, daşının qədrini bil,*
*O köməyə tələsən Paşanın qədrini bil!*
*Kökün, gövdən bir olub, budağın da bir olsun,*
*Qaldır bu sərhədləri, torpağın da bir olsun!*
*Mən bu yolun ağıyam,*
*Ağıyam, çırağıyam,*
*Sür gözünə nur gəlsin*
*Türküstan torpağıyam!*
*Torpağın bir olanda gözünə nur gələcək!*
*Sənin ədalətində millətlər dincələcək!*




*Bu bizim haqq işimiz, ədalət savaşımız,*
*İntiqam ala-ala dikələcək başımız.*
*Vur, əsgərim, vur! - deyə əmr eləyir Komandan*
*Qoy bir də yurdumuzda tökülməsin nahaq qan.*
*Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,*
*Başımızın üstündə üçrəngli bayrağımız!..*
*Qovur öz yuvasına quduzlaşan itləri*
*Ali Baş Komandanın qələbə tvitləri!..*

***

*Gözün aydın, Millətim, qurtardın sıxıntıdan,*
*Daha hədyan maşını üstünə gələ bilmir.*
*Ancaq erməni pulu dolaşdıqca ortada*
*Dini, irqi pul olan yatıb dincələ bilmir...*

*Dünya boynunu büküb böyük güclər önündə*
*Çarəsiz, əli bağlı sonunu gözləyərkən.*
*Ayılara güvənən tülkünü boğmağınla*
*Məzlumların könlünə sən oldun ümid əkən.*

*O əllər ki, uzandı sənə çətin günündə*
*Qardaşların əlidir qızıla tutulmalı.*
*Üzdə bərədər deyib, düşmənə dayaq olan*
*Dinimə ləkə olan şeytandan qurtulmalı.*

*Turan deyib qorxurlar, sən də böyü Turan ol!*
*Bu nifrət əkənlərin ümidini qıran ol!..*

***

*… Dağlara ruh gələcək Şikəstədən, Muğamdan*
*Düşmənlərin əlini üzəcəyəm yaxamdan.*
*Millətim dikələcək qırx milyon, əlli milyon.*
*Bu birlik mahnısını qitələr eşidəcək,*
*Gəncədən Naxçıvana, Naxçıvandan Qəzvinə*
*Əngəlsiz, manesiz yollarım çəkiləcək!*
*Sümüyə dirənibsə əsarət bıçaqları*
*Qapımın ağzındadır, demək xoşbəxt çağlarım.*
*Tarix qatarlarını saxlamaz öz yolundan*
*Kiminsə hədələri, kiminsə ölçəyi.*
*Azərbaycan içindən doğulur, diqqətlə bax,*
*Xalqın ruhu bütövsə, bütövdür gələcəyi!*

***

*Bu sözlər yazılanda hələ keçən əsrdi,*
*Hələ Qarabağımız ermeniyə əsirdi.*
*Ölkə zəif, imkansız, halı pisdir millətin,*
*Arxalı köpəkləri silahla yenmək çətin...*
*İşğalçı göz yaşıyla əl atırdı hər yana,*
*Dünya bizi eşitmir, dünya ona inanan.*
*Ancaq türkün şərəfi taxtından enməmişdi.*
*İçimdəki ümidlər sozalıb sönməmişdi...*

**Noyabr, 2020**

Xalq qəzeti: xüsusi buraxılış.- 2025.- 20 sentyabr.- S.11.